UOT 78.03
https://doi.org/10.59849/2311-8482.2024.2.126

**LALƏ HÜSEYNOVA –HƏSƏNOVA***

# MÜASİR KAMERA-İNSTRUMENTAL MUSİQİDƏ ŞƏRQ-QƏRB ÜSLUB XÜSUSİYYƏTLƏRİNİN QARŞILIQLI ƏLAQƏSİ

*Hazırkı məqalə müasir bəstəkarların yaradıcılığında Şərq-Qərb üslub xüsusiyyətlərinin öyrənilməsinə həsr olunur. Müasir bəstəkarların əsərlərində Şərq-Qərb dialoqunu əks etdirən müxtəlif səs xüsusiyyətləri və ifa tərzinə malik alətlərə müraciət olunur. Bu əsərlərin ortaya çıxmasında sözsüz ki, ifaçıların da böyük rolu vardır. Bəstəkar - ifaçı əməkdaşlığının nəticəsində meydana çıxan belə əsərlər dünya musiqisində Şərq- Qərb vəhdətinin yeni mərhələsinin başlanğıcını qoymuşdur. Azərbaycanın tanınmış bəstəkarları Firəngiz Əlizadə və Cavanşir Quliyev bu müəlliflər arasındadır.*

***Açar sözlər:*** *bəstəkar, instrumental musiqi, Şərq-Qərb, ifaçı, qarşılıqlı əlaqə*

## Giriş

Dünya musiqisində Şərq-Qərb sintezini ifadə edən kamera musiqi janrına aid əsərlər böyük maraq doğurur. Bu əsərlər duet, trio, kvartet, kvintet və daha böyük ansambllar üçün yazılmış tərkiblərdən ibarətdir. Qeyd etmək lazımdır ki, bu əsərlər arasında simli yaylı alətlər üçün bəstələnmiş əsərlər xüsusilə diqqətə layiqdir. Müasir kamera-instrumental musiqiyə Şərq-Qərb kontekstində baxış dünya musiqi tarixində müxtəlif bəstəkarlar tərəfindən tətbiq edilərək yeni musiqi əsərləri və musiqi yazı texnikaları yaranmışdır.

Dünyada bu musiqi janrlarına aid simli yaylı alətlər üçün bəstələnmiş əsərlərə olan maraq müxtəlif ifa tərzi ilə seçilən rəngarəng əsərlərin ortaya çıxmasına səbəb olmuşdur. Təbii ki, bu istiqamətdə həm bəstəkarların, həm də ifaçıların böyük rolu vardır. Kamera - instrumental musiqi sahəsində məhsuldar çalışan bəstəkarlar içərisində Firəngiz Əlizadəni (1947) qeyd etmək olar. O, violonçel üçün həm solo əsərlərin, həm də qarışıq tərkibli kamera ansamlları üçün yazılmış müxtəlif səpkili musiqi kompozisiyalarının müəllifidir. Bu əsərlər içərisində violonçel və fortepiano üçün "Habilsayağı", solo violonçel üçün "Oyan!", violonçel və zərb alətləri üçün "Monoloq", pipa, skripka, violonçel və hazırlıqlı piano üçün "Sabah" kompozisiyası, "Xəzər" kvinteti və digərləri maraq doğurur.

Müasir Azərbaycan bəstəkarlar nəslinin parlaq nümayəndələrindən biri də Cavanşir Quliyevdir (1950). Onun fleyta, saz və violonçel üçün "Karvan", skripka və saz üçün sonatası orijinal dəst-xətti ilə seçilir. Şərq və Avropa musiqi dünyalarının üzvi surətdə yaşaması və bir-birini tamamlaması - dünya mədəniyyətinin inkişafının magistral yolu məhz bundan ibarətdir. Odur ki, müasir bəstəkarların yaradıcılığında bu ikisi arasındakı çarpazlaşma nöqtələrini axtarmaq zəruri məsələdir.

## Əsas təhlil

Müasir musiqidə Şərq-Qərb dialoqunun ortaq nöqtələrini axtarmaq vəzifəsini bir çox bəstəkarlar öz üzərinə götürmüşlər. Hətta deyə bilərik ki, bəstəkarlardan bir çoxu öz yaradıcılıq məqsədini məhz belə müəyyənləşdirmişlər. Firəngiz Əlizadə məhz belə bəstəkarlardandır. O, bir çox əsərlərində Şərq-Qərb mədəniyyətlərinin qarşılıqlı dialoqda göstərmək məqsədini öz qarşısında qoyur və onların original həlli yollarını axtarıb tapa bilir.

F.Əlizadənin əsərlərində muğamın çoxcəhətli təsirini duymaq mümkündür. Muğamın forma və dramaturji xüsusiyyətləri, lad və intonasiya əsası onun əsərlərində aparıcı yerdə durur. Bəstəkarın əsərlərindəki bir çox musiqi epizodlarında muğamdan birbaşa sitatlar gətirilir.

Öz əsərlərinə F.Əlizadə çox zaman maraqlı adlar qoyur və əsərlərinə verdiyi adlarla yazdığı musiqinin mahiyyətini, üslub prinsiplərini ifadə etmiş olur. Bu qısa, ifadəli kəlmələrdən müəllifin musiqi təfəkkürünün, dünyagörüşünün dərk edilməsinə yol açılır [5,55]. 1979-cu ildə Leninqradda (indiki Sankt - Peterburq) Firəngiz Əlizadənin violonçel və fortepiano üçün "Habilsayağı" əsərinin ilk

ifası olmuşdur. Qeyd edək ki, məhz "Habilsayağı" əsərində bəstəkar yaradıcılığının əsas istiqamətləri, onun üslub qayəsi müəyyənləşmişdir. Bəstəkar tərəfindən muğamın yeni musiqinin məcrasına cəlb olunması ilk dəfə bu əsərdə həyata keçirilmişdir. Görkəmli kamança ustası Habil Əliyevin (1927-2015) sənəti, onun ifaçılığına xas olan muğamın yanğılı, kövrək tərzdə təfsiri bəstəkarın diqqətini cəlb edir və o, violonçel ifaçısı İvan Monigettidən "İtalyan alətini Azərbaycan kamançasına çevirən əsər" [3] yazmaq təklifi alır.

Qeyd edək ki, "Habilsayağı" əsərinin İ. Monigetti tərəfindən 1983-cü ildə "Varşava payızı" festivalında uğurlu ifasından sonra, bu əsərin ifasının beynəlxalq miqyasda müxtəlif illərdə və qitələrdə uğurlu səhnə həyatı başlanmışdır [5, 56].

"Habilsayağı" əsərində F.Əlizadə muğama üz tutan bir bəstəkar kimi onun yeni versiyasını yaradaraq, bununla da muğam ifaçısı ilə bir cərgədə durur. Müsiqişünas A.Hüseynovanın təbirincə desək, "Habilsayağı" əsəri həm Habil Əliyevlə "həmmüəlliflik" cəhdi, həm də bəstəkarın fərdi üslubunun təzahürüdür [4,88]. Ümumiyyətlə, musiqişünasların fikrincə, muğam F.Əlizadə yaradıcılığının "prioritet modeli"dir [2,190], "müəllifin dinamik və parlaq təfəkkür tərzi onun dünyagörüşünün muğam köklərini fəallaşdırır" [1].

1993-cü ildə Firəngiz Əlizadənin violonçel üçün yazdığı növbəti əsərinin – "Muğamsayağı"nın ifası baş tutdu. "Kronos Quartet" əsəri Nyu - Yorkun məşhur "Lincoln Center"ində uğurla ifa edirlər. Bu, Azərbaycan bəstəkarının San-Fransiskoda məskunlaşan tanınmış musiqi kollektivi ilə çoxillik əməkdaşlığının başlanğıcı oldu. Belə ki, 1995-ci ildə "Kronos Quartet"in F. Əlizadənin musiqisinə həsr etdiyi diski işıq üzü görür. Həmin diskdə "Muğamsayağı", "Abşeron kvinteti", "Oazis" əsərləri səsləndirilmişdir. "F. Əlizadə Avropa alətlərinin "şərqləşdirilməsi" üsulunun tərəfdarıdır" [5,58].

Məşhur violonçel ifaçıları arasında Yo-Yo Ma təkcə təfsir xüsusiyyətləri ilə deyil, həm də bədii üslub xüsusiyyətləri ilə fərqlənir. Qeyd etmək lazımdır ki, violonçel ifaçısı Şərq-Qərb sintezini özünəməxsus şəkildə tətbiq etməklə bir çox bəstəkarlara təsir etmiş, musiqi aləmini tamamilə yeni səviyyəyə qaldırmışdır. "İpək Yolu" layihəsinin yaradıcısı olan Yo-Yo Ma nəhəng iş görüb və dünya sənətkarlarını bu layihədə toplaya bilib. Məlum olduğu kimi, ifaçı müxtəlif mədəniyyətlərdən və insanlardan ilham alır. Bu layihədə Şərqlə Qərbin qovuşduğu nöqtə yenidən canlanıb. Violonçel ifaçısı bu layihəyə 1988-ci ildə başlayıb və İpək Yolu layihəsinin əsasında Şərqlə Qərb arasında musiqi əlaqəsi yaradılıb. Yo-Yo Ma musiqi vasitəsilə dünya insanlarını birləşdirməyi bacarıb. Yo-Yo Ma Qərbin klassik ənənəsindən kənara çıxır və müxtəlif ölkələrdən müxtəlif musiqiçilərlə işləyərək müxtəlif mədəniyyətləri və musiqi formalarını araşdırır. İfaçının qeyd etdiyi kimi: "Sənətkar üçün yeni alətlərdən istifadə etmək həmişə vacib olub. Bundan əvvəl görüşməsək də, bir yerde toplananda elə bil köhnə dostlar kimi yenidən görüşürük. Biz qarşılıqlı fikir mübadiləsi aparırıq. Sonra konsertimizi veririk. Kayhanla (Kayhan Kalhor, iranlı kamança ifaçısı, bəstəkar – kursiv mənimdir: *L.H.*) Tehranda görüşdük. Alim ilə (Alim Qasımov, azərbaycanlı xanəndə, dünyanın aparıcı muğam ifaçısı – kursiv mənimdir: *L.H.*) Biz oralara gedib evlərinə qonaq olduq. Beləliklə, bir-birimizi, yaşadığımız mühiti, mədəniyyəti daha yaxından tanımaq imkanımız oldu" [Bax,saytaqrafiya № 1].

2000-ci ildə Firəngiz Əlizadə məşhur violonçel ifaçısı Yo-Yo Manın "İpək Yolu" adlı qitələrarası layihəsində iştirak etmək üçün dəvət alır və bu layihə çərçivəsində onun əsərləri dünyanın nüfuzlu konsert salonlarında səslənir. Alim Qasımovun (1957) iştirakı ilə hazırlanan "Dərviş" əsəri layihənin ən böyük uğurlarından biri hesab olunur. Altı il sonra, 2006-cı ilin mayında Bakıda gələn Yo-Yo Ma Mstislav Rostropoviç, Firəngiz Əlizadə v Alim Qasımovun vətəninə gəlişindən xoşbəxt olduğunu bildirmişdir [4,85].

2001–2005-ci illərdə keçirilən 14 festival çərçivəsində Cavanşir Quliyevin fleyta, saz və violonçel üçün "Karvan" adlı əsəri "Böyük İpək Yolu" layihəsinə təqdim olundu. Sözü gedən festivalda Cavanşir Quliyevin "Karvan" əsərinin violonçel partiyasını Yo-Yo Ma ifa etmişdir. Milliyətcə çinli olan amerikalı musiqiçi bu əsərin təfsirini ustalıqla yaratmışdır. Yo-Yo Manın violonçel ifaçılığına yeni nəfəs gətirməsi əlamətdar hadşisədir [5,61]. Cavanşir Quliyevin təbirincə desək, "Yo-Yo Ma bu köhnə və möhtəşəm səslənən musiqi alətini tanıtmaq üçün əsərin ifa texnikasına yeni elementlər əlavə etmiş və violonçeli yeni qiyafədə təqdim etməyə çalışmışdır" [6,206].

Bəstəkar Şərq və Avropa alətlərinin birgə sintezinə yaradıcılığında böyük yer vermişdir. Milli musiqini çox dərindən hiss edən bəstəkar yaradıcılığında səs tembrinə, səs çalarlarına, çalğı

imkanlarına görə bir-birindən fərqlənən alətlərin bərabər səslənməsinə ustalıqla nail olmuşdur. Bu əlbəttə bir tək milli musiqiyə deyil, eyni zamanda, onun həssas musiqi duyumuna da sahib olmaqdan irəli gəlir. Bəstəkar bir - birinə zidd səslənmə tərzini əsərlərində həyata keçirməyi çox sevir. Misal üçün skripka və saz üçün Sonatada (1980) çalğı üsulları, alət tembrləri ilə bir-birindən son dərəcə fərqlənən bu əsərin ərsəyə gəlməsi maraq doğurur [5,62].

Qeyd edək ki, hazırkı məqalə üzərində işləyərkən biz bəstəkarla həyata keçirdiyimiz elmi müsahibələri əsas götürərək, onlara istinad etmişik. Sonatanı yazarkən qarşılaşdığı çətinliklər barədə bəstəkarın bizə verdiyi elmi müsahibədən bir hissəni sizə təqdim edirik: «Tembrlərin uzlaşdırılması, çox mürəkkəb olsa da, başlıca problem deyildi. Unutmayaq ki, saz böyük bir mədəniyyətin təmsilçisidir. Mən sazı ona xas olmayan şəkildə göstərə bilməzdim. Skripkanın arxasında da müəyyən ənənələr durur. Hərçənd saza nisbətən skripkanın təfsiri daha rəngarəngdir, demək olar ki, o emansipasiyaya məruz qalıb. Əgər skripka və saz hərə öz, bir-birindən fərqli musiqisi ilə təmsil olunsa idi, anlaşılmaz bir nəticə alınardı. Deməli, onları üslubca yaxınlaşdırmaq tələb olunurdu. Sazın seçiminə gəldikdə isə söyləməliyəm ki, o, tarla müqayisədə daha ibtidaidir, daha təbiidir. Tar isə sanki «sənayeləşib». Saza müraciətimdə müəyyən etiraz amili də var idi: mən bu alətin tədrisində mövcud problemlərə ictimaiyyətin diqqətini cəlb etmək istərdim. Sonata üzərində işləyərkən sanki bıçağın iti tərəfi ilə addımlayırdım, müvazinətimi itirməməyə çalışırdım. Nəhayət, istədiyimə təxminən, ancaq təxminən



nail oldum. İndi düşünürəm ki, o zaman daha çox risk etməli idim» [5,62–63]

Firəngiz Əlizadə, İ.Nəcəfov, Yo-Yo Ma və Cavanşir Quliyev, "Silk Road", Tanglewood, Massachusetts, 2000 [Bax,saytaqrafiya № 2].

**Nəticə**

Virtuoz violonçel ifaçıları İvan Monigetti ilə başlayan və Yo-Yo Ma ilə davam edən Şərq-Qərb sintezli bədii üslub xüsusiyyətləri dünyanın bir çox bəstəkarlarına təsir göstərmiş və onların yaradıcılığında, xüsusən də violonçel yaradıcılığında öz əksini tapmışdır. Bu dünyaşöhrətli ifaçılar bəstəkar F.Əlizadə və C.Quliyevlə uzun illər boyu sıx təmasda olmuşlar və onların yaradıcılığına dərindən bələddirlər. Uzun illər ərzində onlar müxtəlif Şərq musiqi alətlərinin tembrini, onların simlərinin kəmiyyət və keyfiyyət ölçülərini, səsin mahiyyətini, kəsb etdiyi əhəmiyyəti araşdıraraq müxtəlif Şərq xalqların, o cümlədən zəngin Azərbaycan musiqi folkloru və ifaçılıq xüsusiyyətləri ilə maraqlanmışlar.

Hazırkı məqalədə apardığımız təhlillər göstərir ki, F.Əlizadə və C.Quliyevin hər əsəri Şərq-Qərb mədəniyyətlərinin dialoquna məxsusi baxış, təkrarsız musiqi aləmi qənaəti doğurur. Onları başqa bəstəkarlardan fərqləndirən odur ki, bu dialoqu daha dərindən dərk edirlər. Onların yaradıcılıq yoluna nəzər saldıqda bu iki dünyanı bir etmək, birləşdirmək səylərindəki cəsarəti görürük.

Bu bəstəkarlar təfəkkür tərzinə görə Şərqə, bəstəkarlıq texnikasına görə isə Qərbə məxsusdur. Şərqi səciyyələndirən irrasionallıq, improvizəlilik, çoxtəbəqəlilik, Qərbi ifadə edən rasionallıq, qrafiklik, lakoniklik bu bəstəkarların əsərlərində özünəməxsus tərzdə öz ifadəsini tapmışdır.

## ƏDƏBİYYAT

1. Алиева Ф. Шелковый путь Франгиз Ализаде// The Village Voice, 2000, 20 February.
2. Ализаде Ф. Музыка нуждается в красоте (интервью с М.Каревой)// Музыкальная академия, 2002, c.190
3. Dubinsky G. "My country – gate of the ancient East" (Samad Vurghun) // Kronos Quartet. Muğam Sayagi. Music of Franghiz Alizadeh. Proqram notes. 2006.
4. Hüseynova A. Firəngiz Əlizadə yaradıcılığının estetik və üslub məcrası. - Portretlər. Musiqi dünyası, №1–2 (31), 2007, s.84–90.
5. Hüseynova Həsənova L.Azərbaycan bəstəkarlarının kamera – instrumental əsərləri (Cavanşir Quliyevin simli kvartetlərinin nümunəsində), Xəzər Universiteti nəşriyyatı, 2016.
6. Quliyev C. Yo-Yo Ma // "Musiqi dünyası", 3–4/5, 2000, s.206

**Saytaqrafiya**

1. https://tr.euronews.com/kultur/2011/06/28/yo-yo-ma-ile-ipek-yolu-na-seyahat
2. https://www.facebook.com/javansirguliyev/photos/2000-ci-il-abs-cquliyev-yo-yo-ma-in%C9%99c%C9%99fov-v%C9%99-fir%C9%99ngiz-%C9%99lizad%C9%99-ip%C9%99k-yolusimpoziu/1654248264861682/?paipv=0&eav=Afaw2iBh5Ua4q2DhXce7NVIIQvTql7AHH0hk7YySDCzyRP6PYjh87vK6V6Y_njlItKo&_rdr

***Kastamonu Universiteti, Türkiyə***
***İncəsənət və Dizayn Fakültəsinin***
***"Musiqişünaslıq"şöbəsinin professoru,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***E-mail:lhuseynova@kastamonu.edu.tr***

**Lala Husseynova Hassanova**

## THE RELATIONSHIP BETWEEN THE STYLISTIC FEATURES OF EAST AND WEST IN MODERN CHAMBER INSTRUMENTAL MUSIC

This article is devoted to the study of the stylistic features of East and West in the works of modern composers. The works of contemporary composers use instruments with different sound characteristics and performance styles, reflecting the dialogue between East and West. Undoubtedly, performers played a big role in the appearance of these works. Such works, which appeared as a result of collaboration between the composer and the performer, marked the beginning of a new stage in the unity of East and West in world music. Among these authors are famous Azerbaijani composers Firangiz Alizadeh and Javanshir Guliyev

**Keywords:** *composer, instrumental music, East-West, performer, interaction*

**Лала Гусейнова Гасанова**

## ВЗАИМОСВЯЗЬ СТИЛИСТИЧЕСКИХ ОСОБЕННОСТЕЙ ВОСТОКА И ЗАПАДА В СОВРЕМЕННОЙ КАМЕРНО-ИНСТРУМЕНТАЛЬНОЙ МУЗЫКЕ

Данная статья посвящена изучению стилистических особенностей Востока и Запада в творчестве современных композиторов. В произведениях современных композиторов

используются инструменты с разными звуковыми характеристиками и стилями исполнения, отражающие диалог Востока и Запада. Несомненно, большую роль в появлении этих произведений сыграли исполнители. Подобные произведения, появившиеся в результате сотрудничества композитора и исполнителя, положили начало новому этапу единения Востока и Запада в мировой музыке. Среди этих авторов известные азербайджанские композиторы Фирангиз Ализаде и Джаваншир Гулиев.

**Ключевые слова:** *композитор, инструментальная музыка, Восток-Запад, исполнитель, взаимодействие.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 02.04.2024**
**Son daxilolma tarixi:12.05.2024**